“Dairə seçki komissiyasının nəzarət-təftiş xidməti haqqında Əsasnamə”nin təsdiq edilməsinə dair Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının

# Q Ə R A R I

Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının 8 sentyabr 2003-cü il tarixli 29/228 saylı Qərarı ilə təsdiq edilmiş “Dairə seçki komissiyalarının nəzarət-təftiş xidməti haqqında Əsasnamə”nin struktur elementlərinin “Normativ hüquqi aktlar haqqında” Azərbaycan Respublikasının Konstitusiya Qanununun 30-cu maddəsinə uyğunlaşdırılması, həmin Əsasnamə ilə tənzimlənən münasibətlərin daha da təkmil nizama salınması üçün eyni adlı normativ xarakterli aktın təsdiq edilməsi yolu ilə qüvvədən düşmüş hesab edilməlidir.

Bundan başqa, Mərkəzi Seçki Komissiyası tərəfindən öz səlahiyyətləri daxilində həmin Əsasnamənin rəsmi dərc edilməsi və qüvvəyə minməsi ilə bağlı qanunvericilikdə nəzərdə tutulmuş tədbirlərin görülməsi təmin olunmalıdır.

Mərkəzi Seçki Komissiyası yuxarıda qeyd edilənləri əsas götürərək, “Normativ hüquqi aktlar haqqında” Azərbaycan Respublikasının Konstitusiya Qanununun 78.2-ci və 78.3-cü, Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci və 28.4-cü maddələrinə uyğun olaraq **q ə r a r a a l ı r :**

1. “Dairə seçki komissiyasının nəzarət-təftiş xidməti haqqında Əsasnamə” təsdiq edilsin (əlavə olunur).

2. Bu Əsasnamə qüvvəyə mindiyi gündən Mərkəzi Seçki Komissiyasının 8 sentyabr 2003-cü il tarixli 29/228 saylı Qərarı ilə təsdiq edilmiş “Dairə seçki komissiyalarının nəzarət-təftiş xidməti haqqında Əsasnamə” qüvvədən düşmüş hesab edilsin.

3. Mərkəzi Seçki Komissiyası öz səlahiyyətləri daxilində təsdiq edilmiş Əsasnamənin rəsmi dərc edilməsi və qüvvəyə minməsi ilə bağlı qanunvericilikdə nəzərdə tutulmuş tədbirlərin görülməsini təmin etsin.

Sədr — Məzahir Pənahov

Katib — Arifə Muxtarova

Katib — Mikayıl Rəhimov